# "Biz birlikdə qalib gələcəyik"



İyun ayı rəssam Günay Zebiç üçün əlamətdar olub. Koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunmuş "Biz birlikdə güclüyük"/"We Are Stronger Together" adlı iki tədbirdə onun müəllifi olduğu "Biz birlikdə qalib gələcəyik" adlı rəsm əsərinin təqdimatı maraqla qarşılanıb. Rəssam tablonu ciddi karantin dövründə Bakı məktəbliləri ilə online bağlantı qurub mövcud vəziyyətlə bağlı müzakirələr apararaq ərsəyə gətirib. Tədbir Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının təşkilatçılığı ilə "Xarı bülbül" Təlim və İstehsalat Birliyində baş tutub.




























"Qobu Park" yaşayış kompleksinin bir hissəsi olan "Xarı bülbül" Təlim-İstehsalat Birliyi 28 may 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə açılmışdır. Tədbirdə İncəsənət Gimnaziyasının "Teatr" şöbəsinin müəllimləri və şagirdləri tərəfindən hazırlanmış "Xarı bülbül" tamaşası tədbir iştirakçılarına təqdim olunub. "Biz birlikdə qalib gələcəyik" adlı tablo mövzu aktuallığına və sənət keyfiyyətlərinə görə maraqla qarşılandığı üçün ikinci təqdimat mərasimi "Fairmont" oteldə də baş tutub. ❖

**İlham**